DİN

# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

17 oktyabr 2019-cu il
Cümə axşamı

№ 40 (3455)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ VII ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLİB

***Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib.***

***Əvvəlcə dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə Görüşünü açaraq dövlət və hökumət başçılarını salamlayıb.***

***Sonra Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov çıxış edib. Prezident çıxışında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyin Azərbaycana keçdiyini deyib.***

***Prezident İlham Əliyev Zirvə Görüşündə çıxış edib.***

***Sonra dövlətimizin başçısı "Türk dünyasının Ali Ordeni"ni Qazaxıstan Respublikasının birinci Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevə təqdim edib.***

***Zirvə Görüşündə Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Macarıstanın Baş Naziri Viktor Orban, Türkmənistan Baş Nazirinin müavini Purli Aqamuradov, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev çıxış ediblər.***




***Sonra növbəti Zirvə Görüşünün Türkiyə Respublikasında keçirilməsi qərara alınıb.***

***Daha sonra sənədlərin imzalanması mərasimi olub.***

***Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə yekun vurub.***

***Sonra Prezident İlham Əliyevin adından Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib.***

***Daha sonra konsert proqramı olub***

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 9-da İspaniya Krallığının milli bayramı münasibətilə Əlahəzrət VI Felipeyə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 10-da Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Oktyabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Hindistanda oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə dünya çempionatında 14 yaşlılar arasında qələbə qazanması münasibətilə şahmatçı Aydın Süleymanlını təbrik edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 14-də Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimovun etimadnaməsini qəbul edib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 15-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına və elmin inkişafında xidmətlərinə görə İsa Əkbər oğlu Həbibbəylinin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev baş vermiş "Hagibis" tufanı nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Yaponiyanın Baş Naziri zati-aliləri cənab Şinzo Abeyə başsağlığı teleqramı göndərib.***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKMƏNİSTANA İŞGÜZAR SƏFƏRİ

Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlib.

Oktyabrın 10-da Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşüb.

Oktyabrın 11-də Aşqabadda məhdud tərkibdə iclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib.

Azərbaycan Prezidenti iclasda iştirak edib.

İclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevə Türkmənistanın "Bitərəflik" ordenini təqdim etdi.

Azərbaycanın Rusiyadakı səfiri, MDB-yə üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun idarə heyətinin sədri Polad Bülbüloğlu Fondun "Humanitar əməkdaşlığın inkişafında xidmətlərinə görə" medalını Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təqdim edib.

İclasda bir sıra sənədlər, o cümlədən "Strateji iqtisadi əməkdaşlıq haqqında" bəyannamə imzalanıb.

Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak edib.

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri başa çatıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qazaxıstan Respublikasının birinci Prezidenti-Elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov və Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşüb.***

**Oktyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birgə şam ediblər.**

***Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib.***

***Müşavirədə 2019-cu ilin 9 ayının sosial-iqtisadi yekunları və 2020-ci ilin dövlət və icmal büdcəsi layihələri müzakirə edilib.***

***Prezident İlham Əliyev müşavirədə çıxış edib.***

**Oktyabrın 10-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

**Fransa Prezidenti QİÇS, vərəm və malyariya ilə mübarizə üzrə Qlobal Fonda Azərbaycan tərəfinin dəstək verməsini Azərbaycan Respublikası Prezidentindən xahiş edib.**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Oktyabrın 10-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Geniş potensiala malik ikitərəfli münasibətlərin dinamik inkişaf etdiyini xatırladan Daxili İşlər naziri onlara ölkə Prezidentinin rəhbərliyi altında respublikamızda həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi, ictimai qaydanın qorunması, həmçinin, DİN-in əsas hüquq və vəzifələri, o cümlədən yol hərəkəti təhlükəsizliyinin təmini barədə məlumat verib.

Azərbaycan-Avstriya münasibətləri barədə danışan nazir V.Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında sıx işgüzar əlaqələrin mövcudluğunu, bu əməkdaşlığın beynəlxalq hüquqi sənədlər əsasında həyata keçirildiyini qeyd edib. Avropa ölkələrinin polis təşkilatları arasında Avstriya DİN-in ölkəmizin analoji qurumu ilə ikitərəfli əlaqələr quran ilk orqan olduğunu diqqətə çatdıran cənab Vilayət Eyvazov polis təlimi və ixtisasartırma sahəsində iki mühüm sənədin imzalandığını, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini xüsusi vurğulayıb.

CənabAndreas Rayxhardt səmimi qəbula və ətraflı məlumata görə minnətdarlıq edərək, ölkəmizin sürətli inkişafından, Bakının dünyanın ən gözəl və ən təhlükəsiz şəhərlərindən biri olmasından, burada özünü çox rahat və təhlükəsiz hiss etməsindən məmnunluğunu ifadə edib. O, bütün sahələrdə, o cümlədən yeni informasiya texnologiyalarının tətbiqi, hüquq-mühafizə fəaliyyəti sahəsində təcrübə



və məlumat mübadiləsinin əhəmiyyətini nəzərə çatdıraraq ikitərəfli əlaqələrin daha da genişlənməsinə öz töhfələrini verəcəyini bildirib.

Səmimi və işgüzarlıq şəraitində keçən görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

Avstriyanın respublikamızdakı, ölkəmizin isə Avstriya Respublikasındakı fövqəladə və səlahiyyətli səfirləri - Bernd Bayerl və Qalib İsrafilov qəbulda iştirak ediblər.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Yerlan Turqumbayevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.**

Oktyabrın 14-də cənab Yerlan Turqumbayev və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər düzülüb. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

**Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları salamlayan nazir V.Eyvazov Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Yerlan Turqumbayevi təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini, sahələrarası səmərəli işbirliyinin yeni məzmun kəsb etdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qonaqlara müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, torpaqlarımızın işğalı, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, qəbul edilmiş yeni qanunlar barədə məlumat verilib, sabitliyin yaradılması və onun dönməzliyinin təmini, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində görülən işlər barədə qısa məlumat verilib.

Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Yerlan Turqumbayev səmimi qəbula, yüksək qonaqpərvərliyə və əhatəli məlumata görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib.

Sonra Y.Turqumbayev ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, insan hüquq və azadlıqlarının müdafiəsi, DİN sistemində həyata keçirilən islahatlar, əməliyyat-xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi və digər sahələrdə görülən işlər, həyata keçirilən islahatlar barədə ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyinə əminliyini bildirib.



Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov iştirak edib.

*14 oktyabr 2019-cu il.*

# DİN-in ARİF HEYDƏROV ADINA SIRAVİ VƏ KİÇİK RƏİS HEYƏTİ HAZIRLAYAN MƏKTƏBİ ƏSASLI TƏMİRDƏN SONRA İSTİFADƏYƏ VERİLDİ

**Oktyabrın 12-də Daxili İşlər Nazirliyinin Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbində aparılmış əsaslı təmir-tikinti və yenidənqurma işlərinin təqdimatına həsr olunmuş mərasim keçirilib.**

**Tədbirdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirak edib.**




Məktəbin rəisi, polis polkovniki Mirzeynalabdin Seyidov nazirə şəxsi heyətin mərasimə hazır olması barədə raport verib.

Sonra DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, polis general-mayoru Elçin Həsənov bu təhsil ocağında aparılmış əsaslı təmir, yenidənqurma işləri barədə ətraflı məlumat verib. Bildirilib ki, ümumi sahəsi 2,7 hektar olan ərazidə yerləşən bütün infrastrukturda – inzibati və yataqxana binalarında, tədris korpusunda, Nəzarət-buraxılış məntəqəsində əsaslı təmir aparılıb, təlim yeri, tir, yeni anbar və qapalı avtomobil boksları, mini futbol, voleybol meydançaları, sanitar qovşaqlar və digər yardımçı sahələr tikilib.



Nazir əsaslı təmir olunmuş yataqxanaya, tədris korpusuna, yeni istifadəyə verilmiş yeməkxana kompleksinə, tibb məntəqəsinə, idman meydançalarına və digər inşa edilmiş yardımçı sahələrə baxıb, burada gənc polis əməkdaşlarının normal yaşamaları və təhsil almaları üçün yaradılmış şəraitlə yaxından tanış olub, görülmüş işləri yüksək qiymətləndirib, müvafiq tapşırıq və tövsiyələrini verib.



Tədbirin yekununda Daxili İşlər naziri V.Eyvazov inzibati binanın akt zalında Məktəbin rəhbər və komandir heyəti ilə əməliyyat müşavirəsi keçirib.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin DİO-nun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin rifah halının daha da yaxşılaşmasına hər zaman xüsusi qayğı göstərdiyini xatırladıb, bu ali diqqətin nəticəsində son illər Daxili İşlər Nazirliyinin orqan və hissələri, o cümlədən Arif Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəb üçün ən müasir tələblərə cavab verən müxtəlif təyinatlı binaların, korpusların tikildiyini, onların zəruri texniki və xüsusi vasitələrlə təmin olunduğunu, nəticədə iş, həmçinin sosial-məişət şəraitinin daha da yaxşılaşdığını, hazırki təqdimatın da bunun əyani təzahürü olduğunu qeyd edib.

Nazir bu gün daxili işlər orqanlarının sıralarında yüksək intellektə, geniş dünyagörüşə və biliyə malik gənclərin uğurla xidmət etdiyini məmnunluqla vurğulayıb, onların ən yaxşı ənənələri davam etdirəcəklərinə, bu təhsil ocağında alacaqları bilik və vərdişlərin cinayətkarlıqla mübarizədə uğurla tətbiq edəcəklərinə əminliyini bildirib.



Daxili işlər orqanları qarşısında duran əsas vəzifənin xalqın əmin-amanlığı, dövlətçiliyin, insan və vətəndaş hüquq və azadlıqlarının keşiyində ayıq-sayıq dayanmaq olduğunu nəzərə çatdıran general-polkovnik V.Eyvazov polisin digər hüquq-mühafizə orqanları ilə birlikdə son illər qazandığı uğurların təməlinin hələ ötən əsrin 90-cı illərinin ortalarında qoyulduğunu, sonrakı mərhələdə bu işin davam və inkişaf etdirildiyini, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən dəfələrlə yüksək qiymətləndirildiyini xüsusilə vurğulayıb.

Nazir Məktəbin rəhbər və komandir heyətinə, pedaqoji kollektivinə uğurlar arzulayaraq onlara öz tələb və tövsiyələrini verib. O, əmin olduğunu bildirib ki, məktəbin şəxsi heyəti bundan sonra da qarşıya qoyulan bütün tapşırıq və vəzifələri məsuliyyətlə yerinə yetirəcəklər.

Sonda Məktəbin xidmətdə fərqlənən bir qrup əməkdaşı Daxili İşlər nazirinin müvafiq əmrləri ilə mükafatlandırılıblar.

*12 oktyabr 2019-cu il.*

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il oktyabr ayının 26-da Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov tərəfindən 2019-cu il oktyabr ayının 19-da Bərdə Rayon Polis Şöbəsində Bərdə, Ağcabədi, Tərtər, Ağdam, Şuşa, Laçın, Beyləqan, Füzuli, Xocavənd, Goranboy, Xocalı, Naftalan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİ GENİŞLƏNİR

«Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı»nda qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə Baş Dövlət Yol Polisi İdarəsinin vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları ilə birgə apardığı təbliğat-təşviqat və maarifləndirmə işləri getdikcə daha geniş vüsət alır. Növbəti tədbir Azərbaycan Milli Avtomobil Klubu (AMAK) ilə birgə həyata keçirilib.

Belə ki, “Həssas təbəqədən olan uşaqlar və onların yollarda üzləşdiyi çətinliklər” layihəsi çərçivəsində 1 nömrəli Ailə tipli kiçik qrup evində qonaq olan Baş Dövlət Yol Polisi İdarəsinin və AMAK-ın əməkdaşları yol-hərəkəti təhlükəsizliyi ilə bağlı uşaqlarla səmimi söhbətlər, qarşılıqlı müzakirə aparıblar.

BDYPİ-nin əməkdaşı, polis polkovnik-leytenantı Mübariz Ağayev yol hərəkəti təhlükəsizliyinin əhəmiyyəti, eyni zamanda yol hərəkəti qaydalarına əməl olunmaması nəticəsində törənən neqativ hallar, ağır nəticələr barədə uşaqlara ətraflı məlumat verib və hər bir iştirakçıya Baş Dövlət Yol Polisi İdarəsi adından hədiyyələr təqdim edib.

Müəssisənin əməkdaşları və sakinləri göstərilən diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***Natiq Cavadov, polis mayoru***

# GƏNCLİYİMİZ, GƏLƏCƏYİMİZ NAMİNƏ

**Bu gün veteran şuralarının üzvləri təmsil olunduqları polis orqanlarının fəaliyyətində, ictimai həyatında fəal mövqe tutur, asayişin, sabitliyin qorunmasında, cinayətlərin açılmasında gənc əməkdaşlara nümunə göstərməklə, həm də onlara bilik və təcrübələri ilə dayaq olur, ümumi işə, cari vəzifələrin icrasına öz töhfələrini verirlər.**

Polis veteranları məktəblərdə, tədris müəssisələrində, gənclər kollektivlərində görüşlərə gedir, gənc nəslin təlim-tərbiyəsi, layiqli vətəndaş kimi yetişməsi üçün əllərindən gələni əsirgəmirlər. Görüşlərdə milli-mənəvi dəyərlərimizlə bağlı söhbətlər aparılır, eləcə də sağlam gələcəyimizə aid mövzulara xüsusi diqqət yetirilir.

Belə görüşlərdən biri bu yaxınlarda Ağdaşın Cardam kənd tam orta məktəbində polis veteranlarının iştirakı ilə “Yeniyetmə və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunması yolları” mövzusunda keçirilib.

Tədbirdə çıxış edənlər xalqımızın vətənpərvərlik ənənələrindən geniş söhbət açıblar. "Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında qəhrəmanlıq nümayiş etdirən, son damla qanınadək döyüşən oğul və qızlarımızın həyat yolu yetişməkdə olan gənc nəsil üçün örnəkdir",-deyən veteranlar, gəncləri və yeniyetmələri daha çox respublikamızı dünyada tanıdan idmançılarımızdan, elmin şöhrətini dünyada qorumaq əzmində olan soydaşlarımızdan nümunə götürməli olduqlarını bildiriblər.

Məktəb, valideyn və polis həmrəyliyinin, yeniyetmələrin təhsilə, elmə, idmana olan həvəsinin düzgün istiqamətləndirilməsinin onların vətəninə layiqli övlad kimi yetişməsində ən səmərəli yolu olduğu qeyd olunub.

Belə tədbirlər valideynlər tərəfindən də təqdir edilir.

***Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı***

# MÜBARİZƏ BİRLİKDƏ DAHA SƏMƏRƏLİDİR

**İnsanların ömür çırağını vaxtsız söndürən narkotik vasitələrdən istifadənin qarşısını almaq məqsədilə respublikamızın müxtəlif bölgələrində maarifləndirici layihələr həyata keçirmək, orta və ali tədris müəssisələrində vaxtaşırı "ağ ölüm" ünvanlı bu dəhşətli bəlanın törətdiyi fəsadlar barədə söhbətlər aparmaq, bukletlər hazırlayıb əhali arasında yaymaq, yazı müsabiqələri keçirmək, narkomaniyadan əzab çəkənlərin faciəli həyatından bəhs edən kinosüjetlər nümayiş etdirmək artıq bir ənənəyə çevrilib.**

Belə tədbirlərdən biri Nizami rayonundakı X.Quliyev adına 62 nömrəli məktəb-liseydə gerçəkləşdi. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Mətanət Cabbarlı bəşəriyyətin gələcəyi üçün dəhşətli bəla olan narkomaniyaya qarşı mübarizədə yalnız dövlətin deyil, eləcə də cəmiyyətin hər bir üzvünün fəal rol oynaması zəruriliyini diqqətə çatdırdı. Dedi ki, bu gün gənclərimizi “ağ ğlümü”ün ağuşundan almaq, ona düçar olanları sağlam həyata qaytarmaq üçün hər birimiz üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməliyik.

**Nizami Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Ədalət Abbasov** çıxışında dövlət tərəfindən bu sahədə böyük işlər görüldüyünü, o cümlədən DİN rəhbərliyinin göstərişinə əsasən, mütəmadi olaraq tədbirlər keçirildiyini, narkomaniyanın cəmiyyət üçün bir bəla olduğunu dedi.

Qeyd olundu ki, son illər laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr xüsusilə təhlükəlidir. Çünki o, insanı asanlıqla özünə alışdırır, tədricən ölüm yatağına sürükləyir. Narkotik maddə alverçiləri bir növ "ölüm kabusları"dır. Onlar, əsasən, uşaqların və gənclərin cəmləşdiyi yerlərdə olur, pul xatirinə həmin məhsulları təklif etməklə, onları ölümə aparan bu pis vərdişə alışdırmağa çalışırlar. Yenicə narkotikə qurşananlar da xərci ödəmək və yeni narkotik maddə almaq üçün müxtəlif cinayətlərə əl atırlar.

Tədbirin sonunda məktəblilərin hazırladıqları səhnəciklərə baxıldı, mövzü haqqında onları verdikləri suallar cavablandırıldı.

# FAYDALI FİKİR MÜBADİLƏSİ



**Bu günlərdə Polis Akademiyasında veteranlarla kursantların görüşü keçirilib.**

Görüşdə DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov, Şuranın üzvü Ramiz Axundov, Bakı Şəhər Baş Polis İdarəsi Veteranlar Şurasının sədri Emin Məmmədov və Xətai Rayon Polis İdarəsi Veteranlar Şurasının sədri Nazim Xıdırov iştirak ediblər.

Tədbir öncəsi Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev veteranlarla görüşüb, bu cür tədbirlərin yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsində, bilik və bacarıqlarının artırılmasında, peşə vərdişlərinin təkmilləşdirilməsində, dünyagörüşlərinin formalaşmasında, eləcə də gələcək fəaliyyətlərində əhəmiyyətli rol oynadığını bildirib.

Veteranlar yaradılan şəraitə və göstərilən təşəbbüsə görə minnətdarlıqlarını ifadə ediblər.

Görüşdə çıxış edənlər veteranların gənc nəslin vətənpərvərlik ruhunda, tərbiyəsində mühüm rol oynadıqlarını, bu strateji sahənin yüksək ixtisaslı kadrlarla təminatının vacib olduğunu diqqətə çatdırıblar. Öz zəngin təcrübələrindən danışan polis veteranları bu gün xüsusilə diqqət yetiriləcək məsələlərdən olan narkomaniya, erkən nikah və dini ekstrimizm mövzularından da söhbət açıblar, bu istiqamətdə görülən işlərdən, aparılan profilaktik tədbirlərdən danışıblar.

Görüş faydalı fikir mübadiləsilə davam edib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# HƏYATIMIZ ÜÇÜN...

Oynadığı həmyaşıdlarından fərqli olaraq, ana nəvazişindən məhrum olan Zəhra mehriban olduğu qədər də istiqanlı və dəcəl bir qızcığazdı. Buna görə də uşaqlardan birinin “Gizlən-qaç” deməsilə yaxınlıqdakı transformatorun içərisinə girməsi bir oldu.

Az sonra uşaqlar bir-bir yerlərini bəlli etsələr də Zəhradan xəbər yox idi. Səs-küyə qonşular da yığışdı. Mümkün olan hər yerə baxdılar. Birdən kimsə transformatorun içinə də baxmağı məsləhət gördü...

“102” Xidməti Zəng Mərkəzindən Nizami Rayon Polis İdarəsinə daxil olan məlumat Keşlə qəsəbəsi ərazisində baş vermiş bədbəxt hadisə barədə idi. Dərhal xəbər ərazidəki Post-Patrul Xidməti Bölüyünün əməkdaşlarına ötürüldü.

Bölüyün əməkdaşı, **polis serjantı Zöhrab Nəzərovun** dediklərindən:

-Məlumatı alandan təxminən 5-7 dəqiqə sonra göstərilən ünvandaydıq. Xeyli adam toplaşmışdı. Dərhal onları ərazidən uzaqlaşdırdıq. Yaxınlaşıb transformatorun içinə boylandım. Qız üzüqoylu yerə uzanmışdı. Hava da yavaş-yavaş qaralmaq üzrəydi. Vaxt itirmək olmazdı. Astadan onu səslədim. Başını tərpətməsindən bildim ki, sağdır. Biz gələnəcən cərəyan onu qolundan “vurmuşdu”. Yarasından axan qanı görüb o, əməllicə qorxmuşdu. “Tərpənmə, səni xilas edəcəm” dedim. Ani diqqətsizlik hər ikimizin həyatına son qoya bilərdi. İçəri keçdim. Zəhranı ehmalca özümə tərəf çəkib qucağıma götürdüm. Bayırda artıq həkimlər gözləyirdilər...



Cansağlığı dünyada ən qiymətli nemətdir. Bu gün öz canını, sağlığını Zəhra balamızın həyatını xilas etmək üçün riskə atan polisimizin fədakarlığı, əslində, hər kəsə nümunədir. Gəlin, çevrəmizdə baş verənlərə biganə qalmayaq və qəhrəman olmaq naminə deyil, həyat qurtarmaq yolunda biri-birimizin əlindən tutaq...

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# POLİS HƏMİŞƏ VƏTƏNDAŞIN KÖMƏYİNDƏDİR

**Vətəndaş məmnunluğunun təmini və onları narahat edən məsələlərin tez bir zamanda həlli daxili işlər orqanlarının diqqət mərkəzindədir. Hər zaman xalqımıza arxa-dayaq olan polislərimiz onların rastlaşdığı problemlərin həllində bütün köməklikləri göstərirlər.**

Polisin köməyinə çatdığı vətəndaşlardan biri də Quba rayon sakini Ruhiyyə Abbasovadır. O, 2008-ci ildə törətdiyi cinayət hadisəsinə görə 13 il azadlıqdan məhrum edilib. Cəzasının on il on ayını çəkdikdən sonra möhtərəm dövlət rəhbərimiz tərəfindən imzalanan əfv fərmanı ilə azadlığa buraxılıb. Lakin həbsxana həyatından sonra yaşadığı evə qeydiyyata düşmək istəsə də həmin evin müvafiq sənədləri olmadığı üçün çətinliklərlə üzləşib.

Qarşılaşdığı problemlərə görə Quba RPŞ-yə müraciət edən R.Abbasova burada diqqət və qayğı ilə qarşılanıb. Onu narahat edən məsələnin həll olunması üçün müvafiq tədbirlər görülüb və tezliklə qeydiyyata alınaraq yeni şəxsiyyət vəsiqəsi ilə təmin olunub. Sonra polis əməkdaşları tərəfindən xanımın yaşadığı evə baş çəkilib, yaşayış şəraiti və onu narahat edən digər məsələlər araşdırılaraq həll olunması istiqamətində müvafiq tapşırıqlar verilib.

Ruhiyyə Abbasova Quba Rayon Polis Şöbəsi tərəfindən ona göstərilən diqqət və qayğıya, eləcə də rastlaşdığı problemlərin həllində göstərdikləri köməkliyə görə minnətdarlığını bildirir.

*Natiq Abdullayev,*
*Nizam Həmidov*

# TANIDAQ Kİ...

**Bir qrup Məhəmmədi qəsəbə sakininin Daxili İşlər Nazirliyinə ünvanladıqları məktub diqqətimi çəkdi, marağıma səbəb oldu: “Yaxınlıqdakı kafelərin birində ofisiant işləyən xanımı avtomobil vurması hər birimizn gözləri önündə baş verdi. Aləm bir-birinə qarışmışdı. Kömək üçün hər birimiz əl-ayağa düşdük. Amma nədənsə həmin kafenin sahibi bizim bu istəyimizə qarşı çıxaraq, hətta polis çağırmaq üçün etdiyimiz çağırışların qarşısını kəsmək istəyirdi. Sonradan məlum oldu ki, xəsarət alanın yaşı azdır. Məsələ məlum idi. Kafenin sahibi hərgah öz istəyi ilə olsa da belə azyaşlını məcburi əməyə cəlb etdiyinə görə cərimələnmək istəmirdi. Ancaq…”**



Birdən-birə hadisələrin dəyişməsi, bir nəfərin kütlənin içindən çıxaraq xəsarət alan şəxsi xəstəxanaya çatdırmadıqlarına görə ittiham etməsi, həmin qızı vuran şəxsi müəyyənləşdirib hadisə yerinə polisləri çağırması da məktub müəlliflərinin diqqətindən yayınmayıb. Onun böyük bir təmkinlə insanların, daha doğrusu, hadisəni gizlətmək üçün dəridən-qabıqdan çıxanların hədələrinə qarşı aqressiya nümayiş etdirməməsi onun polis olması fikrini qətiləşdirib.

“Həmin oğlanın səbri, dözümü, hadisələri izləmək və qərar vermək bacarığı bizi valeh etmişdi. Hamı bu mülki geyimli şəxsin kim olması ilə maraqlanırdı. Hadisə yerinə polislər gələndə və onun polis olduğunu biləndə gözlərimiz yaşardı. Adını öyrəndik. İstədik ki, polis mayoru Tərlan İbrahimova vətəndaş borcumuzu bu məktubda yazıya alaq”…

Adı çəkilən həmkarımızla əlaqə saxlayıb görüşdüm və Məhəmmədi qəsəbə sakinlərinin ondan razılıqlarını ifadə edən məktubu ona oxudum.

**Polis mayoru Tərlan İbrahimov** 1984-cü ildə Bakıda doğulub. Polis Akademiyasını bitirib. Xidmətə Qaradağda sahə inspektoru kimi başlayıb. Nəsimi və Nizami RPİ-lərdə müstəntiq vəzifəsində çalışıb. Hazırda Sabunçu RPİ 15-ci PB-də təhqiqatçıdır.

Tərlan həm də maraqlı müsahibdir. Deyir ki, əksəriyyəti Qarabağ qaziləri olan məktub müəlliflərinin qeyd etdikləri ona deməyə əsas verir ki, vətəndaş üçün polis hər zaman xilaskardır.

Söhbət zamanı onun 2014-cü ildə Nəsimi rayonunda işləyərkən bu gün də yaddaşında dərin iz buraxmış, üstünü açdığı quldurluq hadisəsi barədə danışdıqları marağımıza səbəb oldu:

“Taksi sürücülərinə qənim kəsilənlər barədə məlumatlı idik. Ancaq onları tutmaq mümkün olmurdu. Növbədə olduğum gün taksi sürücülərindən biri quldurluqla üzləşdiyi barədə şikayət etmişdi. Onun üstünə bıçaq çıxarıb pulunu aparmışdılar. Əraziyə baxış keçirəndə zərərçəkmiş də yanımızda idi. Birdən yaxınlıqdakı kafelərin birindən çıxan şəxsləri görəndə o, “Məni soyan bunlardır” deyib qışqırdı. Vaxt itirmək olmazdı, qaçıb aradan çıxa bilərdilər. Bizimlə telefon əlaqəsinə çıxıb silahlı olduqlarını dedilər. Mən onların dalınca qaçmağa başladım. Xeyli qaçdıqdan sonra çatıb birini yerə yıxdım və süpürləşməyə başladıq. Digəri bıçaqla mənə xəsarət yetirmək istəyirdi. Amma güc gələ bilməyəcəyini görüb qaçdı. Digərini idarəyə gətirdik. Həmin hadisədə mən xəsarət almışdım. Araşdırmalar zamanı onların Nəsimi, Xətai, Binəqədi rayonlarında da analoji cinayətləri törətməsi məlum oldu. Bu şücaətimə görə DİN rəhbərliyi tərəfindən mükafatlandırıldım.”

Həmkarımız, həm də yaxşı atıcı kimi əməkdaşlar arasında seçilir. Belə ki, o hələ kursant olarkən atıcılıq və qaçış üzrə DİN ikincisi olub. Polis mayoru Tərlan İbrahimov ölkəmizdə keçirilən beynəlxalq yarışlara həm də ona görə cəlb olunur ki, ingilis dilini yaxşı bilir.

Beləcə, Qarabağ qaziləri Rafiq Səmədovun, Vüqar Əliyevin, Adil Nəsibovun, Rauf Tağıyevin, Anar Səfərovun və Nicat Şıxəliyevin məktubunun izinə düşüb polis adını uca tutan, haqqı qoruyan həmkarımızı tanımaq və tanıtmaq imkanımız oldu.

*Hafiz Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ (KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il noyabr ayının 8-də saat 09:00-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən DİN-in Əlahiddə Çevik Polis Alayında və Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant Post-Patrul Xidmətinin polis nəfəri vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcək.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı şəhərində yaşayış yeri olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Sıra baxışına gələnlər şəxsi sənədlərini (şəxsiyyət vəsiqəsi və hərbi bilet) təqdim etməlidirlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

Əlavə olaraq nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-590-97-52; (012)-590-94-12; (012)-590-92-37; (012)-590-93-45.**

***Daxili İşlər Nazirliyi***

# MARAQ DÜNYASI



### MÜQƏVVALAR PARADI

Yaponiyada təşkil edilən festivallar həm öz rəngarəngliyi, həm də həsr olunduğu mövzuların müxtəlifliyi ilə diqqəti cəlb edir.

Belə bayramlardan biri də Tokionun mərkəzində yerləşən Minato-ku rayonunda keçirilən ənənəvi “Kakashima matsuri” və ya “Müqəvvalar festivalı”dır. Əsasən, kənd yerlərində əkin sahələrinə ziyan vuran quşların qovulması məqsədilə quraşdırılan müqəvvalardan fərqli olaraq, burdakı fiqurlar öz çeşidilə diqqəti cəlb edir.

İki gün davam edən festivalın proqramına gəlincə isə, buraya həm müqəvvalar müsabiqəsi, milli mahnılar və rəqslər paradı, müxtəlif məhsulların sərgisi, milli yeməklər və içkilər daxildir.

Müqəvvalar ən müxtəlif materiallardan hazırlanıb və bostanlar boyunca düzülən ənənəvi müqəvvalardan tamamilə seçilir. Kağızdan, plastikdən, penoplastdan və elektrik lampalarından hazırlanan müqəvvalar tamaşaçılar tərəfindən böyük maraqla qarşılanır. Burada istənilən ölçüdə və nağıl qəhrəmanlarını xatırladan müqəvvalara rast gəlmək olar.

### “YAPALAQ SİKKƏLƏR”

Qazaxıstan Milli Bankı “Sevilən heyvanlar – köçəri totemləri” silsiləsindən “Üki” (yapalaq) adlı yeni kolleksiya sikkələri buraxıb.

Beş min və 500 təngə dəyərində olan, habelə melxior ərintisindən düzəldilmiş 200 və 100 təngəlik sikkələr kolleksiyaçılar üçün nəzərdə tutulub. Onların dizaynı “sak tayfasının heyvan təsviri üslubu” əsasında yaradılıb.

Bayquşkimilər fəslindən olan yapalaq bir çox xalqlarda müdriklik, bilik və uzaqgörənlik rəmzi hesab olunur. Köçəri tayfalar bu quşu müqəddəs sayıblar və onun insanları bəd nəzərdən qoruyacağına inanıblar.

Qazaxıstan Milli Bankının zərbxanasında hazırlanan gümüş sikkələr nazik qızıl təbəqə ilə örtülüb və üzərində brilyant daş yerləşdirilib.

### RƏSSAMI... ŞİMPANZEDİR



Londondakı “The Mayor Gallery” qalereyasında Konqo adlı şimpanze tərəfindən çəkilmiş rəsmlərin satış sərgisi keçiriləcək. Dəyəri 1800-7400 dollar qiymətləndirilən 55 rəsm nümayiş etdiriləcək. Rəssam-zooloq Desmond Morrisin fırça tutmağı öyrətdiyi şimpanze üç il ərzində 400-dən çox rəsm çəkib. Pablo Pikasso, Xuan Miro və Salvador Dali kimi rəssamlar onların bəzilərini öz kolleksiyaları üçün alıb. Konqo 1964-cü ildə vərəm xəstəliyindən ölüb.

2005-ci ildə şimpanzenin rəsmləri “Bonham’s” hərracında Uorhol və Renuarın əsərlərindən baha qiymətə – 25 min dollara satılmışdı.

*Ruhiyyə Əliyeva*

# SƏSSİZ ÖLÜM GƏLİR



**"Bu gün hüquq-mühafizə orqanları ilə yanaşı, bütün dövlət strukturları tərəfindən bəşəriyyətin bəlasına çevirilmiş narkomaniyanın qarşısını almaq üçün mühüm addımlar atılır, əməli işlər görülür. Ölkəmizdə ictimaiyyət nümayəndələrinin, gənclərin iştirakı ilə müntəzəm tədbirlər keçirilir. Təəssüf ki, Sumqayıtda da narkotik vasitələrdən istifadə edən, onun alışı-satışı ilə məşğul olan şəxslər var və bunlar bizi narahat edir".**

Bu fikirlər Sumqayıtdakı Texniki və Təbiət Elmləri Liseyində narkomaniya və erkən nikah mövzusunda keçirilən tədbirdə səslənib.



**Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Nəriman İmanov** həmçinin şəhərdəki məktəblərin təhsildə əldə etdikləri uğurlardan da söhbət açıb. O deyib ki, ötən illərə nisbətən son dövrdə Sumqayıtda qəbul imtahanları zamanı yüksək nəticə əldə edən şagirdlərin sayının ildən-ilə artması hər kəsi sevindirir.

Mövzu ilə bağlı narahatlığını ifadə edən N.İmanov ailə dəyərlərinin hər zaman xalqımız tərəfindən uca tutulmasından, ölkəmizdə el adətlərinə hörmətlə yanaşıldığından, bu gün dövlətimiz tərəfindən gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif layihələrin, proqramların həyata keçirilməsindən söhbət açıb, valideynlər arasında təbliğat işinin gücləndirilməsinin vacibliyini bildirib.

Liseyin direktoru Rüxsarə Məmmədova narkomaniya və erkən nikahın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərini sarsıdan, həmçinin insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan amil olduğunu, son illər ölkə miqyasında bu problemə qarşı mübarizə tədbirlərinin geniş miqyas aldığını vurğulayaraq, rəhbərlik etdiyi təhsil müəssisəsində Şəhər Polis İdarəsi əməkdaşlarının mütəmadi olaraq maarifləndirici tədbirlər keçirməsini təqdirəlayiq hal kimi qiymətləndirib.

Sonra ŞPİ-nin Veteranlar Şurasının sədri Rostevan Əliyev, YYÇPİTB-nin rəisi, polis polkovnik-leytenantı Yaqub Bəxşəliyev və digər çıxış edənlər narkomaniya və gənclərin erkən nikaha cəlb olunması ilə hər kəsin mübarizə aparmasını, hüquq-mühafizə orqanlarının bu istiqamətdə həyata keçirdikləri qabaqlayıcı tədbirlərdə yaxından iştirakının həm də bir vətəndaşlıq borcu olduğunu ifadə ediblər.

*H.Təmirov,*
*polis mayoru*

# QANUNUN TƏLƏBLƏRİNİN İCRASI DİQQƏT MƏRKƏZİNDƏDİR

**Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi tərəfindən "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" qanunun tələblərindən irəli gələn vəzifələrin icrası diqqət mərkəzində saxlanılır, tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilir.**

Respublikanın şəhər, rayon polis orqanları tərəfindən aidiyyəti təşkilatlarla birgə qanunla tütün çəkilməsinə icazə verilməyən yerlərdə - təhsil və tərbiyə, səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində, uşaq meydançalarında, yerüstü qapalı və yeraltı piyada keçidlərində, metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda, hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda, avtobusların dayanacaq məntəqələrində, liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində, taksafonlarda, yanacaqdoldurma məntəqələrində monitorinqlər keçirilib, fiziki və hüquqi şəxslər, fərdi sahibkarlar, eləcə də əhali arasında geniş izahat işləri aparılıb.

Maarifləndirmə tədbirləri çərçivəsində "Tütün məmulatlarından istifadənin məhdudlaşdırılması haqqında" qanunun 11-ci maddəsinin 11.4-cü bəndinə əsasən, müvafiq qanunvericiliyin tələblərinin pozulması ilə bağlı Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng Mərkəzi Sisteminə və **www.mia.gov.az** elektron saytına müraciət etmək hüququnun olması barədə vətəndaşlara, fiziki və hüquqi şəxslərə, fərdi sahibkarlara məlumat verilib.

Ümumilikdə, 2019-cu ilin 9 ayı ərzində respublikanın şəhər, rayon polis orqanları tərəfindən keçirilmiş tədbirlər nəticəsində "Tütün məmulatlarından isti-



fadənin məhdudlaşdırılması haqqında" qanunu ilə qadağan edilmiş yerlərdə tütün çəkdiklərinə, tütün məmulatları tullantılarını ətraf mühitə atdıqlarına görə 1923, tütün məmulatlarını yetkinlik yaşına çatmayanlara satdıqlarına görə 224 şəxs İnzibati Xətalar Məcəlləsinin 212.1-ci, 212.4-cü və 455.2-ci maddələrinə əsasən inzibati məsuliyyətə cəlb olunub, onlara tətbiq edilmiş cərimələr 79.550 manat təşkil edib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS AKADEMİYASINDA VAKANT OLAN ZABİT VƏZİFƏLƏRİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ İLƏ ƏLAQƏDAR

## *MÜSABİQƏ ELAN EDİR*

– Dövlət və hüquq nəzəriyyəsi, Daxili işlər orqanlarında inzibati fəaliyyət, Daxili işlər orqanlarında əməliyyat-axtarış fəaliyyəti, Mülki hüquq, Cinayət hüququ, Cinayət prosesi və Kriminalistika kafedralarının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin hüquq təhsili üzrə magistr pilləsini bitirmiş mütəxəssislər);

– Dil hazırlığı kafedrasının müəllimi və baş müəllimi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin magistr pilləsini ingilis dili ixtisası üzrə bitirmiş mütəxəsisslər);

– Hərbi kafedranın müəllimi və baş müəllimi (bu vəzifələrə namizəd hərbi təhsil müəssisələrini və ya dövlət ali təhsil müəssisələrini hərbi ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəsisslər);

– İnformasiya təhlükəsizliyi kafedrasının mühəndis-elektronçusu və mühəndis-proqramçısı (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin avtomatika və idarəetmə elektron texnikası, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə magistr pilləsini bitirmiş mütəxəsisslər);

Mühəndis-elektronçu-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri, cari təmiri və servis xidmətləri haqqında bilik və təcrübəyə malik olan mütəxəssislər.

Mühəndis-proqramçı-dövlət ali təhsil müəssisələrinin riyaziyyat, kompüter riyaziyyatı, informatika və hesablama texnikası ixtisas istiqamətləri üzrə bakalavr və ya magistr pilləsini bitirmiş, Cava, C++ və Delphy proqlaşdırma dillərində işləmək təcrübəsi, həmçinin MS SQL və Oracle verilənlər bazasının idarə edilməsi sisteminin iş prinsipləri haqqında biliyə malik olan mütəxəssislər.

– Psixoloq (bu vəzifələrə dövlət ali təhsil müəssisələrinin bakalavr və ya magistr pilləsini psixologiya və klinik psixologiya ixtisası üzrə bitirmiş mütəxəsisslər);

– Əyani fakültənin kurs rəisinin müavini və kurs rəisi (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif istiqamətləri və hərbi ixtisas istiqamətləri üzrə bitirmiş daxili işlər orqanları əməkdaşları);

– Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin baş inspektoru (magistratura və doktorantura üzrə), elmi katibi və baş inspektor-korrektoru (bu vəzifələrə dövlət ali təhsil müəssisələrini hüquqşünas, maarif, filologiya, humanitar və sosial ixtisas istiqamətləri üzrə bitirmiş mütəxəsisslər);

Müsabiqədə yaşı 35-dən yuxarı olmayan (elmi dərəcəyə malik mütəxəssislər yaşı 40-dək), həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün) və əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

***Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu ilin oktyabr ayının 1-dən noyabr ayının 15-dək http://www.mia.gov.az/index.php?/az/content/29875/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə* bki@mia.gov.az *ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.***

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaqdır.

Daxili işlər orqanları əməkdaşlarına məzuniyyətə çıxarkən və müalicə olunmaları ilə əlaqədar ildə bir dəfə bir aylıq əmək haqqı məbləğində pul müavinəti, DİN-in Tibb İdarəsinin Respublika Hospitalında, poliklinikalarında əməkdaşa və onun ailə üzvlərinə pulsuz tibbi xidmət, DİN-in «Xəzri» İstirahət və Sağlamlıq Mərkəzinə yollayışın qiymətinin əməkdaşa 75 faizi, ailə üzvlərinə 50 faizi miqdarında imtiyaz, eləcə də xidmət zamanı şəhərdaxili ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə kimi əlavə güzəştlər verilir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012)-454-12-78, 590-97-52, 590-92-54.**

***Daxili İşlər Nazirliyinin Polis***
***Akademiyası və Baş Kadrlar İdarəsi***

# ƏSL VƏTƏNDAŞ MÖVQEYİ

**Bu günlərdə Metropolitendə Polis Şöbəsinin əməkdaşları maraqlı hadisənin şahidi olublar. Belə ki, metroda xidmət aparan polis əməkdaşına yaxınlaşan Rza Ələsgərov adlı şəxs platformada yerdən 400 manat məbləğində pul tapdığını bildirib və onu sahibinin tapılması üçün asayiş keşikçisinə təqdim edib.**

Polis əməkdaşı bu barədə dərhal aidiyyatı üzrə məlumat verib. Məlum olub ki, metrodan istifadə edən bir qadın da həmin gün 400 manat məbləğində pulunu itirməsi barədə müraciət edib.

Metropolitendə Polis Şöbəsinin rəhbərliyinin tapşırığı ilə R.Ələsgərov və M.Allahverdiyeva Şöbəyə dəvət edilib, polis əməkdaşlarının da iştirakı ilə pulu tapan şəxs onu sahibinə qaytarıb.

Bu kimi hallarla rastlaşarkən vətəndaş mövqeyi sərgiləmək, tapdığımız əşyaları sahibinə qaytarmaq üçün polisə müraciət etmək həm də əsl vətəndaşlıq borcudur.

*T.Hafiz*

# Oktyabrın 9-dan 15-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 135 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 42 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 102, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 2, borclu şəxs qismində axtarışda olan 31 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 67 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ




Gələn ildən Rusiya yollarında "ağıllı uzanan polis"lər quraşdırıla bilər. Onlar asfalta bərkidilərək nəqliyyatın hərəkətinə uyğun qalxıb-enəcəklər. Layihə müəllifləri əmindirlər ki, bu sistem avtomobil asqılarının ömrünü təxminən iki dəfə artıracaq.

Videoqeydiyyatçı, hər hansı bir nəqliyyat vasitəsinin sürət həddinin aşması zamanı "uzanan polis"ə siqnal ötürəcək və o da qalxacaq. Belə olan halda da sürücü məcbur olub sürət həddini aşağı salacaq.

Yeniliyin daha bir işləmə xüsusiyyəti var - sahibinin tarixi haqqında məlumat olan avtomobillərdə bir mayak tətbiq etməkdir. Qəza törədən və ya yol patrulundan qaçan varsa, həmişə onun qarşısına çıxacaq.

*****

***Gürcüstanın Daxili İşlər Nazirliyi "qara bazar"da dəyəri 9 milyon lari (təqribən 3 milyon ABŞ dolları) olan narkotik maddəni məhv edib. Nazirliyin məlumatında deyilir ki, müxtəlif dövrlərdə 765 cinayət işi üzrə ələ keçirilən narkotik maddələr müasir texnologiyaların köməyi ilə "zərərsizləşdirilib".***

*****

Rusiyanın Daxili İşlər Nazirliyi siqaret çəkməyə başlayan uşaqların valideynlərinin 2 min rubla qədər cərimələnməsini təklif edib.

Məlumatda qeyd olunur ki, bununla bağlı müvafiq təkliflər paketi hazırlanıb. Bu qadağanın pozulmasına görə məsuliyyətin qanunla müəyyən edilməməsi səbəbindən yeniyetmələrin siqaret çəkməsinin qarşısının alınması effekt vermir.

Qeyd edək ki, əvvəllər də Rusiyada müvafiq hökumət komissiyasında siqaret çəkən yeniyetmələrin valideynləri üçün məsuliyyət tətbiq edən İnzibati Xətalar Məcəlləsinin yeni redaksiyasında bir qaydanın tətbiq edilməsi müzakirə edilmişdi. Hətta İnzibati Xətalar Məcəlləsinə "yetkinlik yaşına çatmayanların tütün istehlakına görə valideynlərin inzibati məsuliyyəti haqqında" normanın tətbiqi barədə Ədliyyə Nazirliyinə müraciət göndərməsi barədə təlimat daxil edilmişdi. 2009 və 2014-cü illərdə Dövlət Dumasına analoji qanun layihələri təqdim göndərilmişdi. Lakin bu, təşəbbüs olaraq qalmışdı.

*****

***Fransada terror təhlükəsi səviyyəsi əvvəlki kimi çox yüksək olaraq qalır. Bu barədə Fransanın Daxili İşlər naziri Kristof Kastaner müsahibəsində deyib. "Bu gün Fransada terror təhlükəsi səviyyəsi çox yüksək səviyyədə qalmaqdadır", - deyə nazir bildirib. Kristof Kastanerin sözlərinə görə, ölkədə 2013-cü ildən bəri 59, cari ildə isə 3 terror aktının qarşısı alınıb.***

*C.Natiq*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00